çılar Birliyinin orqanı
yat
Tİ
v.ayb.az
Qiyməti 40 qəpik




*Gərilir zorlu bir yay*
*Oxu fırlatmaq üçün.*
*Gecə göydə doğur ay*
*Yüksəlib batmaq üçün.*
*Məcnun inlər, qanını*
*Leylaya qatmaq üçün.*
*Cilvə yapar sevgili*
*Könül qanatmaq üçün.*
*Şair nədən qəm çəkər?*
*Şeir yaratmaq üçün.*
*Dağda neçin bağrılır? -*
*Fələyə çatmaq üçün.*
*Açılar dadlı güllər*
*Arılar dadmaq üçün.*
*Köksə çiçək taxılır*
*Solunca atmaq üçün...*
*...İnsan böyüyür beşikdə*
*Məzarda yatmaq üçün.*
*Və...*
*Qəhrəmanlar can verir*
*Yurdu yaşatmaq üçün.*